**Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi və onun qüvvədəolma müddətinin uzadılması haqqında Protokolun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi və onun qüvvədəolma müddətinin uzadılması haqqında 2015-ci il martın 18-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Beynəlxalq Qızıl Xaç Komitəsinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyun 2015-ci il
№ 1262

**Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi və onun qüvvədəolma müddətinin uzadılması haqqında**

**PROTOKOL**

"Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi (bundan sonra - BQXK),

BQXK nümayəndələri tərəfindən öz mandatları çərçivəsində ötən müddətdə müvafiq səlahiyyətlərin həyata keçirildiyini nəzərə alaraq və onun davam et-dirilməsini arzulayaraq,

Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişdə (bundan sonra - Saziş) aşağıdakı dəyişikliklər edilməsi, habelə həmin Sazişin qüvvəsinin bir il müddətinə uzadılması barədə razılığa gəldilər:

**Maddə 1**

Sazişin Preambulasının:

- 6-cı abzasından "bütün" sözü çıxarılsın;
- 7-ci abzasında "bütün" sözü "bu Sazişlə müəyyən olunmuş həbs yerlərin-də" sözləri ilə əvəz edilsin;
- 8-ci abzasında birinci halda "bütün" sözü "bu Sazişlə müəyyən olunmuş" sözləri ilə əvəz edilsin.

2-ci maddənin:

- 1-ci bəndindən "bütün" sözü çıxarılsın;
- 2-ci bəndi aşağıdakı yeni redaksiyada verilsin:

"BQXK Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər, Müdafiə, Səhiyyə nazirliklərinin, habelə Dövlət Sərhəd Xidmətinin tabeliyində olan bütün müvafiq saxlama yerlərinə baş çəkir";

4-cü maddənin 1-ci bəndində "BQXK nümayəndələrinə" sözlərindən sonra "bu Sazişlə müəyyən olunmuş" sözləri əlavə edilsin;

7-ci maddənin 1-ci bəndində "bütün" sözü "bu Sazişlə müəyyən olunmuş həbs yerlərində" sözləri ilə əvəz edilsin.

**Maddə 2**

Bu Protokol Sazişin ayrılmaz tərkib hissəsidir və Sazişin 13-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Bu Protokol Bakı şəhərində 18 mart 2015-ci il tarixində, iki nüsxədə, hər bi-ri Azərbaycan və ingilis dillərində imzalanmışdır, hər iki mətn bərabər auten-tikdir.

| Azərbaycan Respublikası Hökuməti adından (imza) | Beynəlxalq Qızıl Xaç Komitəsi adından (imza) |
|---|---|